## K İ N O , T E L E V Ə D İ G Ə R E K R A N S Ə N Ə T L Ə R İ

**UOT 791.43**

**Şəhla Cabbarlı**
**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universiteti**
**AZ 1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**E-mail:** shaxla.cabbarli@mail.ru

# 1960-2000-Cİ İLLƏR AZƏRBAYCAN KİNOSUNDA KOMEDİYA JANRININ TƏHLİLİNƏ DAİR

**Xülasə:** Məqalədə 1960-cı ildən bu günə qədər lentə alınmış komediya filmləri haqqında bəhs olunmuşdur.Komediyanın inkişaf mərhələsindən, Lümyer qardaşlarının lente aldıqları ilk filmlərdən Çarli Çaplinə, Azərbaycan kinosunda şanlı və parlaq bir səhifə açan Üzeyir Hacıbəyovun eyniadlı operettası əsasında çəkilmiş “Arşın mal alan” filmindən müasir dövr komediyalarına qədər olan kinokomediyalara,milli kinonunun əsasında duran sosial mesajlar və xüsusilə də əxlaq problemlərinə nəzər salınmışdır.

**Açar sözlər:** Kino,komediya,Lyümer qardaşları,Çarli Çaplin,“Arşın mal alan”, sosial mesaj.

Kino XIX əsrin ən maraqlı kəşflərindən biridir. 1895-ci ildə meydana gələn kino hər kəsin marağını üzərinə toplamağı bacarır. Kino yaranana kimi bir çox kəşflər olsa da, son imzanı qoyan və bəşəriyyəti filmlə tanış edən Lümyer qardaşları oldu. Onlar martın 22-də insanların çoxluq təşkil etdiyi meydanda, “Lümyerin Monplezir və Liondakı fabrikindən fəhlələrin çıxması” kadrını tamaşaçılara göstərdi. Kiçik kardların izləyicilərin marağını çəkdiyini görən qardaşlar həmin ilin yayında Lümyer 10-dan artıq qısa süjetlər çəkdi. Hamısı da 1-2 dəqiqədən ibarət idi. Qardaşlar kinonun nadir tapıntı olduğunu göstərmək məqsədi ilə Parisin Kapusinov bulvarında ictimai baxış təşkil etdilər. Dekabrın 28-də baş tutan kino seansı hər kəsin təəccübünə səbəb olmuşdu. Həmin gün dünya kinosunun yaranması kimi tarixə düşdü. Lümyer qardaşlarının çəkdikləri səssiz kadrlar ilk vaxtlar böyük maraq doğursa da, təsvirlər hərəkət edən fotoları xatırladırdı. Komik nüanslar isə tamaşaçıların daha çox diqqətini çəkirdi.

Komediya filmləri adətən xoşbəxt sonluqla bitir. Komediya janrında lentə alınan filmləri digərlərindən fərqləndirən xüsusiyyəti gülüş doğuran situasiyaların yer almasıdır. Müəllifin izləyiciyə çatdırmaq istəyi mövzuya uyğun olaraq satirik, lirik komediyalar, kinoparodiya olaraq 4 yerə ayrılır.Şərtlilik dərəcəsinə görə isə ekssentrik, kinovodevil və digər xeyli janr müxtəlifiyinə malikdir. Komediyanın inkişaf mərhələsində başqa sənət növlərinin təcrübəsindən geniş istifadə etmişdir.

Komediya dedikdə isə ağıla o gəlir. Kino tarixinə damğa vuran, əsası, bığları, yerişi bir sözlə geyim tərzi və hərəkətləri ilə tarixə öz izini qoyan aktyor Çarli Çaplin komediya filmlərindəki səssizliyinə baxmayaraq böyük səs səda doğurub. Onun filmlərində hər zaman sosial mesajlar yer almışdır. Bu səbəbdən bir çox təzyiqlərə məruz qalan Çaplin bütün bu olanlara baxmayaraq o öz dəstixəttini pozmayaraq əmin addımlarla irəliləyib. Ölümündən 42 il ötməsinə rəğmən hələ də, filmləri və fəlsəfi düşüncələri hər kəsin dilində əzbər olaraq qalır.

Kino ölkənin tarixinin görüntü yaddaşıdır. Dünya kinosunun yaranmasından 3 il sonra, 1898-ci ildə Aleksandr Mişonun ekranlaşdırdığı sənədli kadrlarla Azərbaycan kinosunun əsası qoyulur. O, "Balaxanıda neft fontanı" və "Bibiheybət neft mədənində yanğın" adlı xronikal süjetləri lentə almış və milli kinematoqrafiyamızın əsasını qoyur. Bundan sonra isə ard-arda filmlər çəkilməyə başlayır. Bütün bunlar onu göstərir ki, keçən əsrin sonundan kino adlı möcüzəni qəbul etmişik. 1915-ci ildə Qafqazda Pirone qardaşları tərəfindən açılan ticarət evlərində prokat kontorları yaradıldı. Elə həmin ildə "Neft və milyonlar səltənətində" romanı əsasında eyni adlı ilk bədii film çəkildi.

Dahi Azərbaycan yazıçısı və bəstəkarı Üzeyir Hacıbəyovun 1913-cü ildə qələmə aldığı "Arşın mal alan" əsərinin 1916-cı ildə ekranlaşdırılması sayəsində kino tarximizdə şanlı və parlaq bir səhifə açılmış oldu. İlk dəfə Bakı şəhərində yerləşən "Forum" kinoteatrında 3 yanvar 1917-ci il tarixində tamaşaçılara sərgilənən "Arşın mal alan" filminin ssenari müəllifi də Üzeyir Hacıbəyov idi. "Filma" səhmdar cəmiyyəti tərəfindən lentə alınan bu film tammetrajlı bədii film idi. Filmin qurluşçu rejissoru Boris Svetlov, qurluşçu opeartoru Qriqori Lamberq öz vəzifəsinə düşən işin öhdəsindən layiqincə gəlmişdi.

"Arşın mal alan" filmi o dövrün texnologiyasına müvafiq olaraq çəkilməsi nöqteyi-nəzərindən ağ-qara və səssiz film idi. Filmdə titrlərin Azərbaycan dilində verilməsi faktı isə bir yenilik idi. "Arşın mal alan" filmində Əsgər rolunda Hüseynqulu Sarabski, Gülçöhrə rolunda Əhməd Ağdamski, Soltan bəy rolunda Ələkbər Hüseynzadə, Cahan xala rolunda Yunis Nərimanov, Süleyman rolunda Mirzəağa Əliyev, Asya rolunda Aleksandra Olenskaya, Vəli rolunda Hənəfi Terequlov, Telli rolunda Yeva Olenskaya kimi aktyorlar rol almışdır. Bir mühüm faktı da qeyd etmək yerinə düşərdi ki, filmdə sonralar Azərbaycan SSRİ əməkdar xadimi adını almış Məmməd Əlili də epizodik rolda oynamışdır.

Filmin ekranlaşdırılması hadisəsindən Üzeyir Hacıbəyovun məlumatı yox idi və o, bu xəbəri film tamaşaçılara nümayiş etdirildikdən sonra eşitmişdi. "1917-ci ilin yanvar ayında "Kaspi" qəzetində dərc olunmuş bir elanda "Arşın mal alan" komediyasını lentə çəkildi və "Forum" kinoteatrında göstəriləcəyi xəbər veriilmişdi. Bu, incəsənət və ədəbiyyat ictimaiyyəti üçün, xüsusilə əsərin müəllifi Üzeyir Hacıbəyov uzun gözlənməz bir hadisə idi. Film Bakıda yalnız bir-iki seans göstərilə bilmişdi. Əsərin lentə alınmasından xəbər tutan Üzeyir Hacıbəyov bir müəllif kimi bu hadisəyə etiraz etmiş və əlaqədar təşkilatlara müraciət edərək, filmin müəllifdən icazəsiz, eləcə də təsadüfi adamlar tərəfindən çəkildiyi üçün müsadirə edilməsini tələb etmiş və bundan sonra filmin nümayişi dayandırılmışdı." (Məmmədli Q. Üç «Arşın mal alan» filmi haqqında. – Azərbaycan gəncləri, 1955, 18 sentyabr.)

Üzeyir Hacıbəyovun kəskin etirazından sonra film 8 yanvar 1917-ci ildə ekrandan yığışdırıldı. Üzeyir Hacıbəyovun gəldiyi qənaətə görə filmin keyfiyyəti olduqca aşağı idi.

Üzeyir Hacıbəyovun göstərişi ilə filmdə texniki cəhətdən keyfiyyətsiz və məzmunca lüzumsuz olan səhnələr çıxardıldı. Lakin bütün bunlara baxmayaraq “Arşın mal alan” filminin köhnə variantı Üzeyir Hacıbəyovun xəbəri olmadan nümayiş etdirlirdi. Bu filmdən sonra musiqili komediyaya olan maraq gücləndi. 1945-ci ildə ekranlaşdırılan “Arşın mal alan” filmi SSRİ dövründən dövlət mükafatına layiq görülüb. Bundan başqa film Rusiya kinosunun 100 illiyi münasibəti ilə aparılan sosioloji tətqiqatlar nəticəsində sovet kinosunun inkişafına müsbət təsir göstərdiyi üçün 100 sevimli film siyahısına daxil olmuşdur. Bu filmlər qızıl, gümüş və bürünc olmaqla 3 hissəyə ayrılıb. “Arşın mal alan” filmi isə qızıl siyahıya daxil olub.

Digər rəğbət qazanan komediya filmi isə 1956-cı ildə rejissor Hüseyn Seyidzadə tərəfindən lentə alınan “O olmasın bu olsun” filmidir. Hər iki musiqili komediya filmində dövrün problemləri öz əksini tapmışdır. Bu musiqili komediyaları birləşdirən nüanslardan biri də sevginin pula, cəhalətə və feodal qalıqlarına qalib gəlməsidir.

Azərbaycan kinosunun daha da inkişaf etməsi, dirçəlməsi 1960-1970 –ci illərə təsadüf edir. Bu dövr ərzində milli kinonunun əsasında daha çox sosial mesajlar və xüsusilə də əxlaq problemlərin kəskin həlli nəzərə çarpırdı.

1960-1970-ci illərdə Azərbaycan kinosunda komediya janrında çəkilmiş filmlərdə cəmiyyətdə sosial-siyasi dəyişikliklərin komik əksi nümayiş olunmuşdur. Hər gülüşün altında gerçəkliklər əks olunmuşdur. “Əhməd haradadır”, “Romeo mənim qonşumdur”, “Ulduz”, “Arşın Mal Alan”, “Alma almaya bənzər” “Dərviş Parisi partladır”, “Günlərin bir günü” “Qayınana” “Yol əhvalatı” “Babamızın babasının babası”, “Evlənmək istəyirəm””Cin mikrorayonda”, “Yaramaz”, “Bəxt üzüyü” “Həm ziyarət,həm ticarət”, “Adi əhvalatlar”, və s filmlərdə biz dövrün problemlərini,insanların xarakterindəki mənfilikləri,ziddiyyətlərin insan şəxsiyyətinin formalaşmasında olan rolunu, ailələrin övladların üzərindəki basqısını, cəmiyyətin ailə üzərində olan mənfi baxış nöqtələrini bariz şəkildə görürük.

1970-ci illərdə şöhrət qazanan “Şən və hazırcavablar klubu” müasir dövür filmlərinin ilham mənbəyi olmuşdur. Qrupun üzvləri küçədə, qonşuda, iş yerlərində baş verən nöqsanları heç kimin xətrinə dəymədən, yüngül yumor ilə cəmiyyətin diqqətinə çatdırıb. Keçmiş ittifaq dağıldıqdan sonra öz aktuallıqlarını itirməklərinə baxmayaraq onların zarafatları hələ də müasir filmlərdə öz əksini tapmışdır. Bunlara misal olaraq isə “Məhəllə 1-2”, “Adam ol”, “Toy”, “İnterpapa”, “Hərənin öz payı, üstəgəl öz tayı” filmlərini göstərmək olar. Sosial problemlərin də çatdırıldığı filmlər vasitəsi ilə Azərbaycan kinosuna gəlir gətirmək də mümkün oldu.

1960-cı illərdə öz qızıl dövrünü yaşayan kino sahəsi 1990-cı illərdə tənəzzül etməyə başladı. Buna səbəb isə, satışın və dublyajın aşağı səviyyədə olması idi. Məhz buna görə, dublyajın ixtisaslı kadrlar tərəfindən həyata keçirilməsi məsələsi gündəmə gəlmişdi.

Kino yarandığı dövrdən tamaşaçılar komediya janrında çəkilən filmlərə üstünlük verirdilər. Təbii ki, 60-cı illərdə lentə alınan komediyaları hazırkı filmlər ilə müqayisə etmək doğru deyil. Yeni dövr komediya filmləri əsasən kommersiya məqsədi ilə çəkilib. Bu filmlərdə tamaşaçıya sosial mesaj ötürülmür, amma 60-70- ci illərdə çəkilən komediyalarda cəmiyyətə komik süjetlərlə insanları düşündürən problemlər göstərilirdi. Filmlərdə ciddi nöqsanlardan biri də gülüş və tənqid hədəfinin düzgün seçilməməsidir. Azərbaycanda komediya filmləri əsasən dövlət maliyyəsinə çəkilmir bu janrda lentə yeni

filmlərimiz özəl prodakşınlar tərəfindən çəkilir. “Axırıncı yol”, “Oğlan evi”, “Ay brilliant”, “Xoxan”, “Gizlənpaç”, “Niyə?”, “Hoqqa”, “Kəklikotu”, “Hozu”, “3 badam 1 qoz”, kimi və.s filmlərdə sosial-ictimai problemlər öz əksini tapmır. Hazırda bu probləmlərin qabardılmamasına səbəb isə, bu qayğılara əhəmiyyət verilməməsidir. Bundan öncə aktyorların canlandırdığı obraz, əsərin özündən təsirli və yadda qalan olurdu. Yəni izləyiciyə tam olaraq əsərin mahiyyəti çatdırılırdı. Bizdən fərqli olaraq digər ölkələrdə insanları narahat edən məsələlər komediya filmləri ilə öz ifadəsini tapıb. Bizim filmlərdə isə bu dəst-xəttə rast gəlmək mümkün deyil. Yeni lentə alınan komediya filmlərində küçə sözləri və jarqon ifadələrdən istifadə olunur. Bu səbəbdən filmlər izləyicilərin rəğbətini qazanmır. Mütaliəsi az olan, yumor hissindən uzaq olan, janr barədə kiyafət qədər məlumatlı olmayan insanların film çəkməsi bir-birinə bənzər filmlərin ərsəyə gəlməsinə səbəb olur. Komediya filmlərinin konkret hədəf nöqtəsi olmalıdır. Bunu da qeyd etmək mütləqdir ki, teatrda sosial-ictimai və mənəvi problemlər yüksək səviyyədə öz əksini tapır. Komediya janrının daxili bədii imkanları çox genişdir. O dillərdən istifadə edərək, istənilən informasiyanı ötürmək mümkündür. Hazırda yalnız gülüş yaratmağa əhəmiyyət verilir. O gülüş düşündürür-düşündürmür bu onları narahat etmir. Gülüş hədəfi olmayan komediya isə film kimi uğur qazana bilməz.

## Ədəbiyyat:

1.“Bakı xəbər” qazeti // 2017, 07 noyabr
2.“Ədalət” qazeti// 2015, 29 dekabr
3.“Səs”qazeti // 2018, 2 avqust, sayı.
4.“Bakı” qazeti 1995 23 dekabr sayı.
5. “Mədəniyyət”qazeti 2009 13 may sayı.
6. “Azadlıq” 2010 27 oktyabr sayı.

**Шахла Чаббарлы**

## Об анализе комедийного жанра в азербайджанском кино 1960-2000-годов

**Резюме**

Статья посвящена анализу комедийных фильмов, снятых с 1960 по настоящее время. А именно, начиная с фильмов снятых братьев Люмьер до Чарли Чаплина, с фильма "Аршин мал алан",которая была снята на основе оперетты Узеира Гаджибекова вплоть до современных комедийных фильмов.

**Ключевые слова**:кино, комедия, Братья Люмьер, Чарли Чаплин, "Аршын мал алан", социальное сообщение

**Shahla Cabbarli**

## On the analysis of the Comedy genre in Azerbaijani cinema of the 1960-2000s

**Summary**

The article is devoted to the analysis of Comedy films shot from 1960 to the present. Namely, from the Lumiere brothers 'films to Charlie Chaplin, from the film "Arshin Mal Alan", which was based on Uzeyir Hajibeyov's operetta up to modern Comedy films.

**Keywords**: cinema, comedy, the Lumiere Brothers, Charlie Chaplin, "Arshin Mal Alan", social message.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.03.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.03.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 02.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Əli Əmirli**
ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur